# MƏRKƏZİ BANKIN PUL SİYASƏTİ ALƏTLƏRİ

**Mərkəzi Bankın pul siyasəti alətləri arsenalına çərçivə alətləri, açıq bazar əməliyyatları üzrə alətlər, habelə məcburi ehtiyat normaları daxildir.**

## I. Çərçivə alətləri

*Vəsaitlərin qısamüddətli cəlb olunması və yerləşdirilməsi alətlərindən ibarət olan çərçivə alətləri bankların qısamüddətli likvidliyinin idarə olunmasına xidmət edir və bankların təşəbbüsü ilə Mərkəzi Bank tərəfindən təsbit olunmuş faiz dərəcələri ilə həyata keçirilir. Çərçivə alətləri bank sistemində likvidlik səviyyəsinin və beləliklə banklararası bazarda faiz dərəcələrinin kəskin dəyişmələrinin qarşısının alınmasında mühüm rol oynayır.*

- Vəsaitlərin cəlb olunması (sterilizasiya xarakterli) məqsədilə aparılan əməliyyatlar 1-7 günlük REPO əməliyyatları və valyuta satışı üzrə 1 günlük svop əməliyyatlarından ibarətdir. 1-7 günlük REPO əməliyyatları Mərkəzi Bankın əməliyyatlarının faiz dərəcələri dəhlizinin (faiz dəhlizi) aşağı həddi ilə aparılır. Valyuta satışı üzrə 1 günlük svop əməliyyatları üzrə svop bəndi 1 günlük əks-repo əməliyyatları üzrə faiz dərəcəsindən az olmayan ən aşağı səviyyədə müəyyən olunur.
- Vəsaitlərin yerləşdirilməsi (emissiya xarakterli) məqsədilə aparılan əməliyyatlar 1-7 günlük əks-REPO əməliyyatları və valyuta alışı üzrə 1 günlük svop əməliyyatlarından ibarətdir. 1-7 günlük əks-REPO əməliyyatları faiz dəhlizinin yuxarı həddi ilə aparılır. Valyuta alışı üzrə 1 günlük svop əməliyyatları üzrə svop bəndi 1 günlük əks-repo əməliyyatları üzrə faiz dərəcəsindən az olmayan ən aşağı səviyyədə müəyyən olunur.

## II. Açıq bazar əməliyyatları üzrə alətlər

*Açıq bazar əməliyyatları pul siyasətinin əməliyyat hədəflərinin reallaşdırılması məqsədilə dövriyyədə olan pul kütləsinin tənzimlənməsi və banklararası pul bazarında faiz dərəcələrinə təsir etmək məqsədilə Mərkəzi Bankın təşəbbüsü ilə həyata keçirilir.*

- Vəsaitlərin cəlb olunması (sterilizasiya xarakterli) məqsədilə açıq bazar əməliyyatları faiz dəhlizinin aşağı həddi ilə uçot dərəcəsi arasında dəyişən faiz dərəcələri ilə aparılır və aşağıdakı əməliyyatlardan ibarətdir:

- *Depozit əməliyyatları*. Cəlbetmə üzrə depozit əməliyyatları bir il müddətinədək, birbaşa və ya dolayı hərraclar vasitəsilə həyata keçirilə bilər. Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə cəlbetmə üzrə hərracdankənar depozit əməliyyatları da keçirilə bilər. Bu zaman bu əməliyyatların şərtləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən olunur.
- *Mərkəzi Bankın qısamüddətli notlarının yerləşdirilməsi.* Qısamüddətli notlar Mərkəzi Bank tərəfindən buraxılan istiqrazlardır.
- *REPO əməliyyatları.* Mərkəzi Bankın portfelində mövcud qiymətli kağızlar həcmində Mərkəzi Bank tərəfindən qiymətli kağızların sonradan geri almaq şərtilə kommersiya banklarına satışıdır.
- *Valyuta satışı üzrə svop.* Mərkəzi Bank tərəfindən xarici valyutanın sonradan geri almaq şərtilə kommersiya banklarına satışıdır.

▪ <u>Vəsaitlərin yerləşdirilməsi</u> (emissiya xarakterli) məqsədilə açıq bazar əməliyyatları uçot dərəcəsi ilə faiz dəhlizinin yuxarı həddi arasında dəyişən faiz dərəcələri ilə aparılır və aşağıdakı əməliyyatlardan ibarətdir:

- *Yenidənmaliyyələşdirmə kreditləri.* Mərkəzi Bank tərəfindən birbaşa və ya dolayı hərraclar vasitəsilə 30 gün müddətinədək təminatlı əsasda yenidənmaliyyələşdirmə kreditləri verilə bilər. Eyni zamanda Mərkəzi Bank tərəfindən aşağıdakı müddətlərdə hərracdankənar yenidənmaliyyələşdirmə kreditləri verilə bilər:
  - 360 gün müddətinədək Mərkəzi Bankın uçot dərəcəsi ilə;
  - 360 gündən yuxarı müddətə Mərkəzi Bankın İdarə Heyətinin müəyyən etdiyi şərtlərlə.
- *Depozit əməliyyatları*. Yerləşdirmə üzrə depozit əməliyyatları bir il müddətinədək, birbaşa və ya dolayı hərraclar vasitəsilə həyata keçirilə bilər.
- *Əks-REPO əməliyyatları.* Mərkəzi Bank tərəfindən qiymətli kağızların sonradan geri satmaq şərtilə kommersiya banklarından alışıdır.
- *Valyuta alışı üzrə svop.* Mərkəzi Bank tərəfindən xarici valyutanın sonradan geri satmaq şərtilə kommersiya banklarından alışıdır.

## III. Məcburi ehtiyat normaları

*Məcburi ehtiyat normaları ölkədə pul kütləsinin və bank sisteminin likvidliyinin tənzimlənməsində istifadə olunan pul siyasəti alətidir. Məcburi ehtiyat normaları banklar tərəfindən cəlb olunan vəsaitlərin Mərkəzi Bankda məcburi qaydada saxlanılan bir hissəsidir.*

- Mərkəzi Bank tərəfindən müəyyən edilmiş məcburi ehtiyat norması əsasında bankların saxlamalı olduqları məcburi ehtiyatların məbləği hesablanır. Məcburi ehtiyatlar bankın hesablama bazasının (*bankın milli və xarici valyutada, qiymətli metallarda cəlb etdiyi vəsaitlərdir)* hesablama dövrü *(hər ayın ilk təqvim günü başlayır və son təqvim günü bitir)* üzrə orta günlük qalığı əsasında hesablanır.
- Hesablanmış məcburi ehtiyat saxlama dövrü *(dövrü bitdikdən sonrakı ayın 15-ci təqvim günü başlayır və növbəti ayın 14-cü təqvim gününədək davam edir)* ərzində bankın Mərkəzi Bankda olan müxbir hesabında saxlanılır.

**Mərkəzi Bankın çərçivə və açıq bazar əməliyyatları üzrə alətləri haqda məlumat**

| Alətin forması | Alətin təyinatı | Alət | Müddət | Faiz dərəcəsi |
|---|---|---|---|---|
| Çərçivə alətləri | Sterilizasiya | Repo əməliyyatları | 1-7 günlük | Faiz dəhlizinin aşağı həddi |
| | | Valyuta alışı/satışı svopu | 1 günlük | Faiz dəhlizinin yuxarı həddindən az olmayan ən aşağı səviyyədə müəyyən edilmiş svop bənd ilə |
| | Emissiya | Əks-Repo əməliyyatları | 1-7 günlük | Faiz dəhlizinin yuxarı həddi |
| | | Valyuta satışı/alışı svopu | 1 günlük | Faiz dəhlizinin yuxarı həddindən az olmayan ən aşağı səviyyədə müəyyən edilmiş svop bənd ilə |
| Açıq bazar əməliyyatları | Sterilizasiya | Cəlbetmə üzrə depozit əməliyyatları | Maksimum 1 il | Faiz dəhlizinin aşağı həddi ilə uçot faiz dərəcəsi arasında |
| | | Qısamüddətli notlarının emissiyası | Maksimum 1 il | |
| | | REPO əməliyyatları | Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilmiş müddətlərdə | |
| | Emissiya | Yerləşdirmə üzrə depozit əməliyyatları | Maksimum 1 il | Uçot dərəcəsi ilə faiz dəhlizinin yuxarı həddi arasında |
| | | Əks-REPO əməliyyatları | Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilmiş müddətlərdə | |
| | | Yenidən maliyyələşdirmə kreditləri | Hərraclar vasitəsi ilə maksimum 30 gün, hərracdan kənar 30 gündən yuxarı müddətə | |